Qonşu xalqların torpaqlarını zəbt edərək "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədi güdən ermənilər tarix boyunca Azərbaycan türklərinə qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Öz doğma yurdundan zaman-zaman didərgin düşmüş soydaşlarımızın acı fəryadları, üzləşdikləri fəlakətlər yaxın tarixin erməni üzqaralıqları sırasında yer alıb. Doğma ellərdəki qərib yurdumuzun - Qərbi Azərbaycanımızın bir zamankı gözəl günləri, erməni zülmünün acı xatirələri, işğal altında qalan torpaq həsrəti yaddaşlarda dərin iz buraxmış, əsla unudulmamışdır.

Türk dünyasının qanlı səhifəsi: Qərbi Azərbaycandan deportasiya

Tariximizə nəzər salsaq, torpaqlarımızı mənimsəmək naminə, böyük siyasət nəticəsində Azərbaycan türkləri ayrı-ayrı vaxtlarda indi erməni dövləti kimi tanınan tarixi yurdumuz Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiya olunmuş, qaçqın, köçkün adını daşımağa, olmazın məhrumiyyətlərlə yaşamağa məruz qoyulmuşdur. Bu mənfur siyasətin cəzasızlığı, düşmənin etnik təmizləmə siyasəti illər ötdükcə təkrarlanmış, davam etmiş, torpaqlarımız hesabına daha da genişlənmiş və törətdikləri soyqırımı aktlarına qədər yüksəlmişdir. Bu zaman ərzində xalqın yaddaşını da silməyə çalışmış, tarixi sənədləri saxtalaşdırmağa sövq etmişlər.

"Unutqanlıq böyük bir dərddir, əslində, faciədir. İnsanlar bəzən bugünü ilə yaşayır, yaxın keçmişin acı xatirələrini, faciələrini yaddaşlardan silməklə sanki özlərinə təsəlli verməyə çalışırlar. Bütövlükdə hansısa bir xalqın, millətin, cəmiyyətin unutqanlıq dərdinə tutulmasının fəsadları isə daha ağır olur. Bu bəzən tarixin təkərinin geriyə fırlanmasına, müəyyən faciələrin, vəhşətlərin təkrarlanmasına da şərait yaradır". Bu fikri **əslən Vedi rayonunun Çığın Qaraqoyunlu kəndindən olan, hazırda Türkiyənin Aydın şəhərində yaşayan məktəb direktoru İbrahim Taşar** vurğulayıb.

O deyib ki, keçmişini unudanları gələcək bağışlamır. Mahiyyətindən, baş verməsəbəblərindən asılı olmayaraq, zamanın hər bir səhifəsi xatırlanır, bəzən də yaddaşlara əbədi həkk olunur. Elə hadisələr də var ki, onların daim xatırlanması, unudulmaması bütövlükdə xalq və dövlət üçün taleyüklü məsələyə çevrilir. Keçmişin qanlı-qadalı, faciəli olayları bütöv bir toplumun, xalqın səhvlərdən düzgün nəticə çıxarması, nəhayət, özünü tanıyaraq mübarizə ovqatında köklənməsi baxımından zəruri olur. Zaman-zaman ermənilərin türklərə və azərbaycanlılara qarşı ərazi ilhaqı, terror və soyqırımı siyasətini unutsaq, tarix bizləri heç vaxt bağışlamayacaq.

"Erməni millətçilərinin xalqlarımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi Azərbaycan türklərini qədim torpaqlarından sıxışdırıb çıxarmaq, həmin ərazilərdə erməni ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə, əsrlər boyu bu vandalizmin qurbanı olmuş, xalqlarımızın qan yaddaşında dərin izlər buraxmışdır. Bizlər bu qəddarlığı necə unuda bilərik? Biz unutsaq əgər nənə və babalarımızın ruhları bizləri bağışlaya bilərmi?, - deyə İ.Taşar vurğulayıb.

O xatirə dəftərini vərəqləyir. Nənəsi Tuyqunun və babası İsrafilin onlara danışdıqları ağrılı-acılı həyat heykayələrini bizimlə bölüşür: "1915-ci ildə babamın 14, nənəmin isə 13 yaşı olub. Erməni qonşuları bir gün babamın və nənəmin atalarına, həmçinin digər türk ailələrinə deyiblər ki, kənddə yaşayan türklərə qarşı qırğınlar hazırlanır. Təcili kəndi tərk edin, hamınızı öldürəcəklər. Babamın və nənəmin atası gecəylə kəndi tərk edərək Araz çayını keçib İğdıra gəliblər. Amma qonşular bunun təxribat olduğunu düşünərək kənddə qalıblar. Çox təəssüflər olsun ki, bir gecə kəndə basqın edən qəddar ermənilər, neçə-neçə ailəni başsız qoyublar.

Aradan bir müddət keçdikdən sonra babamın qardaşı təkrar Vediyə qayıdıb. Amma ermənilər türklərin yenidən Vedidə bünövrələnməsinə imkan verməyiblər. Geriyə qayıdan bütün türklərin hamısı orada qətl edilib.

Babamgil qaçarkən bütün qohum və əqrəbaları paramparça olub. Hər kəs fərqli səmtə üz tutub və doğmaları bir-birindən uzaqlarda bilinməz ünvanlarda məskunlaşıblar. Babam son nəfəsinə kimi qohumlarını axtardı. Ancaq çox təəssüflər olsun ki, arzuları yarımçıq qaldı".

Xatırladaq ki, 1915-1918-ci illərdə Vedi rayonunun Çığın Qaraqoyunlu kəndinin əhalisi erməni vandalları tərəfindən qovulmuş və Türkiyədən gəlmə ermənilər kəndə yerləşdirilmişdir.

1922-ci ildən sonra əhalinin bir hissəsi geri qayıdaraq ermənilərlə qarışıq yaşamağa başlamışlar. 1949-cu ildə kəndin azərbaycanlı əhalisi yenidən Azərbaycana köçürülmüşdür

Kəndin adı XIII-XV əsrlərdə Cənubi Qafqazın siyasi həyatında mühüm rol oynamış Qaraqoyunlu tayfa birləşməsinin adını əks etdirir. Qaraqoyunlular hacılı, ağacəri, bayramlı, əyinli, duhanlı, alpout, qaramanlu, baxarlu tayfalarından ibarət olub.

Qeyd edək ki, İ.Taşar həm də bir Azərbaycan sevdalısıdır. 44 günlük Vətən müharibəsində yazdığı şeirilə Azərbaycana olan sevgisini ifadə edib.

Men de gelim hele canım suludu
Gönlüm cavannardan daha delidi
İlк hedefim Şuşa, Ağdam elidi
Yol verin eğilin, dağlar eğilin.
Elim Vedi, кendim Qaraqoyunnu
Türк ordusu bozar hain oyunu
At üstünden zalım кatil soyunu
Yol verin eğilin, dağlar eğilin.

İ.Taşar son olaraq, tarixi ədalətin zəfər çalacağına və bu gün yerli əhalinin Qarabağa və Qərbi Zəngəzura qayıtdığı kimi, Azərbaycan türklərinin də tezliklə Qərbi Azərbaycanda öz ata-baba yurdlarına qayıdacaqlarına əminliyini ifadə edib.

Esmira YAZKAN ASLANOVA,
"Respublika" qəzetinin
Türkiyə üzrə müxbiri.